**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 9 (2043) 13 fevral 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Mirzə Baxış Nadimə qayğı baxışı

**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu son illər əsrlərin ”həbsxanasında” qalmış əlyazmaların çoxuna nəşr amministisiya verib onları işıq üzünə çıxarır.**

Həmin institutun nəşr etdiyi kitabların böyük elmi araşdırmalar, mətnşünaslıq bərpaları hesabına başa gəldiyini xüsusi qeyd etmək lazımdır. (Ərəb əlifbası ilə yazılmış həmin əsərlər əsrlərin tozundan silkinir, düzəlişlər zərgər dəqiqliyi ilə üzərinə qonur, necə deyərlər, onları nəşrə hazırlayırlar.

Bir hərf xətası ilə Nadirin nar, bir nöqtə xətası ilə gözün kor olmasına imkan vermirlər).

Onu da qeyd edək ki, dünyaca tanınmış mətnşünas alim, Firdovsi ”Şahnamə”sinin İran üçün nəşrinin müəllifi Rüstəm Əliyev, ərəbşünas alim Əbülfəz Elçibəy də həmin İnstitutda əməkdaşlıq etmişdir.

İnstitutun adını daşıyan Füzulinin fəlsəfi traktatının tərcüməsi və nəşrinin müəllifi, şərqşünaslarımızın sərkərdəsi hesab oluna bilən Ziya Bünyadov, başçılıq etdiyi Şərqşünaslıq İnstitutunun professoru, Əmir xosrovpəhləvinin ”Məcnun və Leyli” əsərinin mətnşünası, nəşrə hazırlayanı (əsgər SSRİ Şərqşünaslıq İnstitutu tərəfindən Moskvada nəfis şəkildə nəşr olunmuşdur).

Tahir Məhərrəmov Füzuli adını şərəflə daşıyan İnstitutla yaxından əməkdaşlıq etmişdi.

Bu dəfə İnstitutun ən yeni bir nəşrindən söhbət açacağıq. On doqquzuncu əsrdə yaşamış Mirzə Baxış Nadimin seçilmiş ədərlərinin işıq üzü gördüyündən danışacağıq. Əlbəttə onun nəşr qayğısını çəkən işıqlı xələflərinə böyük minnətdarlıq hissiylə.

Mirzə Baxışların nəşr olunması hər şeydən əvvəl oxucularında, qələm əhillərimizin heç birinin unudulmadığı nikbin ovqatını yaşadır.

Düzdür, ən böyük ədiblərimiz öz məktəbini yaratmış ustad şairlərimiz, Nizami, Füzuli, Sabirlərin böyük dühalarının uçrum aşdığı onlardan sonra həmin üslubda yazanların həmin uçrumlara yuvarlandıqları fikri söylənmişdi.

Amma bizim mühitdə fikri, şeirlə (bu çox zaman nəzmə çevrilmişdir) ifadə etmək bir növ hünər sayılmış, bu da yüzlərlə soydaşlarımızın klassik janrlarda lələyini sınamasına çıxarmışdı.

Onlardan birinin də haqqında söhbət açmaq istədiyimiz qəzəlxanımızı hesab etmək olar.

Qəzəl janrında Mirzə Baxış baxışını incələyəcəyik və demək istəyəcəyik ki, belə müəlliflərin qələmə sarılması ədəbiyyatımızın xeyrinə olmuş, onlar öz yaradıcılığı ilə gələcəyin dahilərinə münbit zəmin yaratmışdır. (Onu da qeyd edək ki, müəllif qələmini şeirimizin bir çox formasında sınaqdan çıxarmış, hər birində də uğurlu nümunələr yarada bilmişdi).

İlkin qəzəllərdən söhbət açmağımıza səbəb onları əruzda yazması tələbindən irəli gəlir.

Əruzun da hər bəhrinin öz musiqisi olduğunu nəzərə alsaq qəzəl ərsəyə gətirməyin məsuliyyətini söyləmiş oluruq.

İlk növbədə ən xoşa gələn cəhət müəllifin əruza bələdliəyi, qəzəllərini onun bəhrələrinin musiqisinə uyğun




bəstələməsi oldu:

**Əksi ruyin gözümə surəti-mina görünür**
**Şövqilə baxsam əgər, nəşeyi-sevda görünür.**
**”Hüsnü Yusif Sana nisbət verə bilməz kimsə,**
**Töhmət: təni məzəmmətdə Züleyxa görünür.**
**...Nədimin getməyi xoşdur bu cahandan zira**
**Vəsli çox müşkül olubdu, niya bica görünür.**

Qəzəllərin mövzu etibarı ilə bir-birini təkrar etməməsi, mətnlərdə yeni qafiyələrin tutulması müəllifin peşəkarlığından xəbər verir.

**Fəsli novruz gəlib oldu yenə il təzə**
**Səbzələr baş götürüb, cümlə çıxıb pişvazə,**

və ya:

**Belə əhvali-pərişan, nə gəzirsən, nə olub?**
**Bağrımı şan-şan edib, hərdən əzirsən, nə olub?**

Qəzəllər əlbəttə dövrün xanəndələri tərəfindən oxunduqda öz qanadlarını bərkidir, pərvazlanıb oxucularına çatır. Ümidvarıq ki, Mirzə Baxışın uğurlu qəzəlləri günümüzün muğam ustadlarının da da diqqətini çəkəcək. Onları səsinin məlahəti ilə mənəvi gözəlliyini bir az da artırıb ürəklərə yatacaqdır. Müəllifin qoşmaları, müxəmməsləri, rübailəri, qəsidələri də poeziya sahəsində peşəkarlığından xəbər verir. Müsbət haldır ki, qoşmaların bəzilərində müəllifin naməlum həyatının naməlum tərəflərindən də məlumat verir. Kitabın müqəddimə müəllifləri, filologiya elmlər doktorları, Paşa Kərimov və Raqub Kərimov bu barədə söhbət açır. ”Nadimin uzun müddət haralarda olması barədə heç bir məlumat yoxdur. Ancaq şairin əldə olan bəzi şeirlərindən məlum olur ki, o, bir müddət qürbətdə yaşamış, son dərəcə ağır günlər keçirmiş, vətən həsrəti ilə od tutub yanmışdır”.

**Kimsənəm yox mənə yazsın bir namə**
**Qürbət içrə bu diyarə, bənimçün.**
**Məlum olsun sizə əhli-möhübban**
**Ona qılın sahibkara, bənimçün.**

Bu barədə daha uğurlu bir qoşmasında daha aydın məlumat verir:

**Gecə-gündüz qan-yaş tökub ağlaram**
**Vətən tərkin qılıb eldən ayrıldım,**
**Bibəhrdir, heç görmədim səfasın,**
**Bağban idim, qönçə güldən ayrıldım.**

Yeri gəlmişkən bəzi kiçik redaktə xətalarına yol verilməsə daha yaxşı olardı. Bəzi qoşmalarda heca artıqlığı, bölgü pozğunluğu görünür:

**O nədir ki, qismətə olur qənaət**
**(Bir heca artıqlığı ahəngi pozur)**
**Qədəm basdı geri, dərmana düşdüm**
və ya:

(Bu misra dörd-dörd üç bölgüsünü pozur). Əlbəttə bunlar şair yaradıcılığına böyük xidmətə xələl gətirmir.

Müəllifin poetik nümunələri klassik ədəbiyyatla tanışlığından da xəbər verir. Bunu qəzəlləri, qoşmaları və rübailərində daha çox hiss etmək olur.

Qoşmaların birinin müraciət forması həm şairlərimizin, həm aşıqlarımızın yaraıcılığında mühüm yer tutmuşdur. Bundan hətta türkmən klassik şairi Məhdim-guhu da faydalanmışdır. Hətta az qala Nəsimi timsalında faydalanma ünvanını da göstərmişdi:

**Ol nədir ki, yemədilər, doydular,**
**Ol nədir ki, qiyamətə qoydular.**
**Ol kimdir ki, dərisini soydular, -**
**Hünərin var şu sorğuya cavab ver.**

Mirzə Baxış Nədim qoşmaları da həmin çevik qıfılbənd var idi:

**Səndən xəbər aldım aşiqi-şeyda**
**O nədir ki, ondan ayə gəlibdi.**
**O nədir ki, dolandırır hökmilən, -**
**O nədir ki, müdam payə gəlibdi.**

Müəllifin suallarının predmetlərinin təzəliyi diqqəti cəlb edir. Onlara uyğun cavablar da qoşmanın məna dəyərini atırır:

**O nədir ki, eldən-elə görünməz,**
**O nədir ki, haqqı-sayə gəlibdi?**
**”Baxış deyər ilan elə görünməz**
**Qaranquşdur haqqı-sayə gəlibdi”.**

Şeirimizin naməlum cəfakeşlərinin üzə çıxarılmasında Füzuli adına Əlyazmalar İnstitutunun humanist fəaliyyətini bir daha alqışlamaq istəyirəm. Onlar klassik şairlərimizin təsiri ilə odlanmış şeir pərvanələrimizi sönməyə qoymur.

Onların əsərlərini hətta qürbətlərdə də tapır, vətənə qaytarır, oxucu ünvanına pərvazlandırır.

Bu sahədə Paşa Kərimovun xidmətini xüsusi qeyd etmək istəyirəm. Onun mavi ekranlardan hər çıxışını Mirzə Baxış Nadimlərin boy göstərəcək baharlarının qaranquş müjdəsi hesab edirəm.

**Ümidvaram ki, belə yaradıcılıqlar oxucularımızın ünvanına çatacaq onları təsirləndirəcək. Nakam şairlərimizi ehtiramla yad edəcəklər.**

**Sabir Cümşüd,**
**Şair-professor**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR

Ədalət.- 2020.- 13 fevral. S. 6.